


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 177 (24.314)**

***27 sentyabr 2023-cü il, çərşənbə***

***Gündəlik ictimai-siyasi qəzet***

**Qiyməti 30 qəpik**


## Prezident İlham Əliyev 27 Sentyabr – Anım Günü ilə əlaqədar paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 27 Sentyabr – Anım Günü ilə əlaqədar paylaşım edib.




## Tarixi dostluq müstəvisindən strateji müttəfiqliyə

### *Türkiyəni Türk dünyasına bağlayan Naxçıvandan dünyaya mesajlar*

Türkiyə Prezidentinin 15 ildən sonra sentyabrın 25-də yenidən Naxçıvana səfəri bu dəfə fərqli kontekstdən yanaşmanı tələb edir. Ötən müddət Cənubi Qafqazda yeni reallıqları gündəmə gətirməklə yanaşı, eyni zamanda Azərbaycan-Türkiyə münasibətlərini də yeni müstəviyə – Şuşa Bəyannaməsi ilə rəsmiləşdirilən strateji müttəfiqlik səviyyəsinə qaldırıb. Xüsusilə Azərbaycanın son 3 il ərzində bütün Qafqaz regionunu dəyişən proseslərə imza atması bu istiqamətdə görülən tədbirlərin və yaranan yeni reallıqların müzakirəsini zəruri amilə çevirib. Bu səfərin Vətən müharibəsinin 3-cü ildönümü ərəfəsinə, Azərbaycanın Qarabağ bölgəsində keçirdiyi lokal xarakterli 24 saatlıq antiterror tədbirlərinin müsbət nəticə ilə yekunlaşmasından qısa bir müddət sonraya təsadüf etməsi də əbəs yerə deyil. Prezident cənab İlham Əliyev də öz çıxışında bunu qeyd etdi: ***"Beş gün bundan əvvəl Azərbaycan öz suverenliyini tam təmin etmişdir. Əgər üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etmişdiksə, beş gün əvvəl biz suverenliyimizi tam təmin etdik, bərpa etdik".***

Naxçıvan həmişə strateji əhəmiyyətli bir bölgə olub. Qərblə Şərqi birləşdirən Böyük İpək Yolunun üzərində yerləşməsi onu həmişə fatehlərin, qüdrətli dövlətlərin siyasi maraqlarının kəsişdiyi və toqquşduğu ünvana çevirib. 90-cı illərdə Naxçıvanı ağır vəziyyətdən xilas edən xalqımızın böyük oğlu Heydər Əliyev ***"Naxçıvan Türk-islam dünyasına bir qapıdır"***, – deyirdi. 1992-ci ilin may ayında ermənilərin artan işğalçı fəallığına cavab olaraq Ümummilli Liderin təşəbbüsü ilə Türkiyə Cümhuriyyəti 1921-ci il Qars müqaviləsinə əsasən Naxçıvan haqqında söz sahibi, onun muxtariyyətinin qarantı olduğunu yenidən bütün dünyaya bəyan etdi. Məhz bu bəyanatdan sonra dünyanın 57 dövləti Ermənistanın təcavüzkar hərəkətlərini pislədi. Türkiyə sabitləşdirici missiya daşıdığına görə onun regionda olması ümumi sabitliyə xidmət edən bir mühit yaradır. Çünki artıq bütün dünya Türkiyə reallığı ilə hesablaşır. Naxçıvana baş tutan bu səfər də həmin amilin dünyaya bir daha bəyanıdır.

Təbii ki, Türkiyə-Azərbaycan münasibətləri dərin tarixi köklərdən qaynaqlanır, müasir mərhələdə isə daha geniş xarakterli miqyas alıb. 2008-ci ilin iyun ayında Azərbaycan Prezidenti cənab İlham Əliyevlə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfəri böyük siyasi məna daşıyırdı. Həmin səfərdə geniş tərkibdə keçirilən görüşdə ***"Sizin Naxçıvana səfəriniz çox böyük əhəmiyyət daşıyır və əminəm ki, onun nəticələri də çox uğurlu olacaqdır, Naxçıvan qədim Azərbaycan torpağıdır və Türkiyə ilə Azərbaycan arasında yeganə sərhəd yeri buradır",*** – deyən ölkə başçımızın bu sözlərinə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan onu da əlavə etdi ki, *"Sərhəd şəhəri Naxçıvanda keçirəcəyimiz görüşlərin çox böyük mənası olacaqdır. Bu baxımdan biz buna çox böyük əhəmiyyət veririk".*

Məhz həmin görüşdə Naxçıvanın enerji təhlükəsizliyi, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə düşməsi və Azərbaycan qazının Türkiyə bazarlarına daxil olması, xüsusilə gələcəkdə bu qazın həcminin artımından sonra Türkiyənin Naxçıvanla həmsərhəd olan bölgələrinə də təbii qazın verilməsi nəzərdə tutulurdu. Bu layihənin təbii davamı olaraq Naxçıvanın bu xəttə birləşməsi də nəzərdə tutulurdu. Sentyabrın 25-də isə biz həmin tarixi anın gerçəkləşməsinə şahidlik etdik. Təməl ideyası 15 il bundan əvvəl atılmış layihə bu gün artıq ölkə liderlərinin iradəsi ilə gerçəkliyə çevrildi.

Naxçıvanın yeni layihəyə qoşulması muxtar respublikanın gələcək iqtisadi inkişafı üçün böyük əhəmiyyət kəsb edən məsələdir. İğdır-Naxçıvan magistral qaz kəmərinin çəkilməsi kimi iri iqtisadi layihənin həyata keçirilməsi regionun gələcək inkişafına istiqamətlənib. Hazırda Naxçıvanın mavi yanacağa tələbatının 2004-cü ildə İranla bağlanılmış svop müqaviləsi əsasında həyata keçirildiyini nəzərə alanda, Türkiyə vasitəsilə də təbii qaz tədarükünün reallaşdırılması muxtar respublikanın qaz təchizatını şaxələndirməyə və enerji təminatının etibarlılığına, Türkiyənin Azərbaycan, o cümlədən Naxçıvan Muxtar Respublikası üçün əhəmiyyətinin daha bir istiqamətdə artmasına imkan verir.

Sentyabrın 25-də baş tutan səfər, eyni zamanda Zəngəzur dəhlizinin fəaliyyətə başlaması üçün artıq son hazırlıqların görülməsi, kommunikasiyaların açılması yönündə bəyanatların səslənməsi ilə də əhəmiyyətlidir. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışında səsləndirdiyi kifayət qədər açıq mesajda görmək olur: *"Son zəfərlə birlikdə bölgədə əhatəli normallaşma üçün yeni fürsət pəncərələri açılmışdır. Bu fürsətin dəyərləndirilməli olduğuna inanıram. Ermənistanın ona uzadılan sülh əlini tutmasını və artıq səmimi addımlar atmasını gözləyirik. Hər zaman vurğuladığım kimi, sülhün uduzanı olmaz. Bölgəmizdə sülh, sabitlik və rifahın yaranması xalqlarımıza olan borcumuzdur. Biz bu borcu yerinə yetirməkdə qətiyyətliyik, səmimiyik. Arzumuz qarşı tərəfin də eyni səmimiyyəti göstərməsidir".*

Türk dünyasının birlik və həmrəyliyində Böyük Turanın qapısı olaraq Naxçıvanın xüsusi yeri var. Bu günün reallığından yanaşdıqda əgər 2008-ci il iyunun 4-də Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Naxçıvana ilk səfəri, Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına dair danışıqlar aparılması böyük tarixi önəm daşıyırdısa, 13 il sonra – 2021-ci il iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzaladıqları "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" hər iki liderin ozamankı əminlik ifadəsinin möhtəşəm təcəssümü oldu.

Naxçıvan səfərində bu məsələyə toxunan Prezident Rəcəb Tayyib Ərdoğan qeyd etdi ki: *"Türkiyə-Azərbaycan əlaqələri dünyada tayı-bərabəri olmayan müstəsna səviyyədədir. "Bir millət, iki dövlət" şüarı çərçivəsində əlaqələrimizi və əməkdaşlığımızı bütün sahələrdə gücləndirmək üçün fəaliyyətimizi davam etdiririk. İlham qardaşımla imzaladığımız Şuşa Bəyannaməsi əlaqələrimizi müttəfiqlik səviyyəsinə yüksəldən bir dönüş nöqtəsidir..."*

Təbii ki, hazırkı səfər indiki ərəfədə dünyaya, o cümlədən Ermənistana açıq mesaj baxımından da müsbət qiymətləndirilir. Liderlərin iştirakı ilə Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin istifadəyə verilməsi isə başqa bir mesajı çatdırır. Müxtəlif növ tank, zirehli döyüş maşını və transportyorların, artilleriya qurğu və sistemlərinin, hava hücumundan müdafiə vasitələrinin, atıcı silahların, mühəndis texnikasının, rabitə avadanlıqlarının, optik cihazların təmirini və modernləşdirilməsini, müxtəlif növ daxiliyanma mühərriklərinin təmirini və stend üzərində yoxlanılmasını, qeyd olunan bütün vasitələr üzərində detal və avadanlıqların dəyişdirilməsini və test edilməsini həyata keçirmək imkanına malik olan modernləşdirilmiş kompleks bu istiqamətdə qardaş ölkələr arasında hərbi əməkdaşlığın yüksələn xətlə daim inkişaf etdiyini və yeni işlərə imza atmağa imkan verdiyini bir daha əyani şəkildə göstərdi.

Digər məsələ, son dövrlərdə Azərbaycanın istər hərbi, istərsə də diplomatik yolla Ermənistan və onun dəstəklədiyi qanunsuz silahlı birləşmələr, terrorist qruplar üzərində qələbə çalıb onları tərk-silah etməsi, beynəlxalq arenada ölkəmizə qarşı Fransa kimi kolonist ölkə tərəfindən cəhd edilən, amma uğursuzluqla nəticələnən təzyiqləri dəf etməsi, separatçıların ağ bayraq qaldırmağa məcbur edilməsi və dinc yolla ərazilərimizi boşaltma, silah-sursatlarını təhvilvermə prosesinin getdiyi bir zamanda Naxçıvanda bu görüşün keçirilməsi və yeni layihələrə start verilməsi, sözün hər mənasında, Azərbaycanın qələbəsi, strateji müttəfiq kimi Avropanın böyük və qüdrətli dövlətlərindən, səlahiyyətli söz sahiblərindən biri olan Türkiyənin bu müstəvidə regionda böyük siyasi və iqtisadi güc imicinin möhkəmlənməsində müstəsna əhəmiyyət daşıyır.

Türkiyə Prezidentinin *"Naxçıvan tarixboyu daşıdığı strateji əhəmiyyəti ilə Azərbaycanla əlaqələrimizdə xüsusi yerə sahibdir. Naxçıvan bu gün də iqtisadiyyat, nəqliyyat və enerji xətləri baxımından böyük potensiala malikdir. Regional nəqliyyat xətlərinin yaradılması ilə birlikdə bu potensialı tam mənasında həyata keçirmək imkanına sahib olacağıq"* fikirləri aspektindən yanaşdıqda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu"nun imzalanması olduqca mühüm əhəmiyyətə malikdir. ***"Qars-Naxçıvan dəmir yolunun inşasına dair niyyət protokolunun imzalanması tarixi hadisədir"***, – deyən Azərbaycan Prezidenti cənab İlham Əliyev ***"Bu gün isə Türkiyədən Azərbaycanın parçası olan Naxçıvana qaz kəmərinin inşası ilə bağlı işlərə start veririk. Qars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolunun imzalanması da tarixi hadisədir. Əminəm ki, bu layihə də uğurla həyata keçiriləcək və beləliklə, Orta Dəhlizin bir qolu kimi həm Azərbaycana, həm Türkiyəyə, həm də digər ölkələrə xidmət göstərəcəkdir"***, – deyə əlavə edib.

Naxçıvandakı görüş, müzakirə olunan məsələlər və şahidlik etdiyimiz tarixi reallıq, eyni zamanda Prezidentin bu yaxınlardakı Tacikistan səfərində verdiyi mesajların reallaşması istiqamətində də atılan yeni addımların gerçəkliyə çevrilməsi deməkdir. Azərbaycanın Mərkəzi Asiya ölkələri üçün Türkiyə və Avropa bazarları və əks-istiqamətdə etibarlı tranzit ölkəsi olması amili isə birbaşa Naxçıvanla bağlıdır. Tezliklə açılacaq Zəngəzur dəhlizi kommunikasiyaların bərpasına və artıq təməli atılmış layihələrin həyata keçirilməsinə imkan verəcək. Nəhayətində, bir müddət əvvələ qədər əyalət mərkəzini xatırladan, iqtisadi blokadanın çətinlikləri ilə üzləşən Naxçıvan indi yalnız regional deyil, dövlətlərarası əməkdaşlıqda da yaxından iştirak edir, Azərbaycan-Türkiyə əlaqələri kontekstində aparıcı rol oynayır.

Əgər politoloqlar hələ o zaman – 2008-ci ilin iyununda Türkiyənin Baş naziri olan Ərdoğanın Naxçıvana səfərini iki ölkənin və regional münasibətlərinin inkişafında yeni addım kimi qiymətləndirirdisə, artıq 15 ildən sonra Prezident kimi baş tutan bu səfər strateji müttəfiqlik səviyyəsində həyata keçirilir. ***"Bizim müştərək maraqlarımız ondan ibarətdir ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun, müharibələr olmasın, ölkələrin ərazi bütövlüyü təmin edilsin"***, – deyə ölkə başçısı cənab İlham Əliyev vurğulayıb.

Naxçıvanda keçirilən bu görüş simvolik və ya sadə bir görüş deyil. Bu mühüm layihələrin müzakirə edildiyi, Avrasiyanın orta xəttində tarixi ədalətin bərpa ediləcəyi bir görüş kimi tarixə düşdü. Bu görüş, eyni zamanda Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlıdır. Türkiyənin mövcudluğu regionda yeni bir geosiyasi, geoiqtisadi mövqe qurur. Artıq uzun müddətdir ki, bu regionda formalaşmış geosiyasi konfiqurasiya darmadağın edilib. *"Bu dəfə sizinlə Türkiyəni Türk dünyası ilə birləşdirən Naxçıvanda birlikdə olmaqdan böyük məmnunluq duyuram"*, – deyən qardaş ölkənin başçısı Naxçıvanın Türkiyənin Mərkəzi Asiya regionuna inteqrasiyasında bir nömrəli açar olduğunu bir daha dilə gətirib.

Azərbaycan Prezidentinin çox incə, həssas, düşünülmüş şəkildə dünya siyasətinə bələd olması və diplomatiya tətbiq etməsi ölkəmizi beynəlxalq sferada daima irəliyə doğru aparır. Diplomatiya mümkün olmayanı bacarmaq, mümkün olmayanı etməkdir. Azərbaycan Lideri isə mümkünsüz kimi görünən və qiymətləndirilənləri həyata keçirməklə dünyaya Azərbaycansayağı diplomatiya dərsi keçir.

*Və son olaraq tarixi rəsmi qarşılanma mərasiminin və günün görüşünün keçirildiyi, tarixi sənədlərin imzalandığı, mətbuata birgə bəyanatların verildiyi məkan. Buranın da xüsusi bir əhəmiyyəti və özünəməxsus mesajı var, desək, zənnimcə, yanılmarıq. Bu həmin o bina, həmin o zaldır ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə ötən əsrin 90-cı illərində Azərbaycanın gələcəyi üçün taleyüklü qərarlar burada qəbul olunmuşdu. Həmrəyliyimiz burada elan olunmuş, Dövlət bayrağımız burada qaldırılmış, Dövlət Himnimiz burada səsləndirilmişdir. İndi isə Ulu Öndərin davamçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin gələcək perspektivləri, inkişaf hədəflərini özündə ehtiva edən böyük tarixi qərarlara burada imza atılır. Tarix təkərrürdən ibarətdir.*

**Məmməd BABAYEV**




27 sentyabr Anım Günüdür

# Zəfərə gedən yolun cığırı, yeni tarixi mərhələyə keçidin başlanğıcı

***27 sentyabr Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə Anım Günü kimi qeyd edilir. Bu təqvimin Azərbaycan tarixində çox mühüm əhəmiyyəti var. Məhz 2020-ci ilin bu günündə Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması üçün mübarizəyə qalxmış və 44 gün ərzində öz müqəddəs məqsədinə çataraq Vətənimizin ərazi bütövlüyünü təmin etmişdir.***

Yaxşı yadımızdadır ki, Azərbaycan Prezidenti 2003-cü ildən başlayaraq hər zaman deyirdi ki, Dağlıq Qarabağ (keçmiş) münaqişəsi sülh yolu ilə həll olunmasa, biz onu hərbi yolla həll edəcəyik. Ölkə başçısının bu fikirləri, demək olar ki, həmin 17 il ərzində mütəmadi olaraq bütün yüksək tribunalardan səslənirdi. Amma hər zaman da istər ayrı-ayrı dövlət rəhbərləri, istərsə də beynəlxalq təşkilatların nümayəndələri problemin yalnız danışıqlar yolu ilə həll oluna biləcəyini dilə gətirir, müharibə variantının mümkün olmadığını bildirirdilər. Prezident cənab İlham Əliyevin müharibədən sonrakı çıxışlarında bu fikir xüsusi olaraq qeyd olunurdu: ***“Bu düşmənlə nə qədər danışıqlar aparmaq olar? Özü də düşmən harınlaşır, qudurur və bizə deyirlər ki, yox, ancaq sülh yolu ilə, bunun hərbi variantı yoxdur. Kim deyir yoxdur? Bəs, indi məsələnin hərbi variantı deyilmi? Biz nə edirik? Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetiririk. Halbuki bu, BMT Təhlükəsizlik Şurasının vəzifəsidir. Biz təkbaşına icra edirik. Biz yeni reallıq yaratmışıq. Hesablaşın! Ancaq nə görürük? Orada görüş, burada görüş, atəşkəs belə oldu, atəşkəsi kim pozdu. Deməli, bunların bütün fəaliyyəti indi Ermənistanı xilas etməkdir. Təcavüzkarı, Xocalı soyqırımını törədəni, Gəncəni Ermənistan ərazisindən ballistik raketlərlə bombalayanı. Budur bu fəaliyyət”.***

Bəli, biz məsələnin həlli üçün 30 il səbir edərək gözləmişdik. Bir müharibəni səbirsizliklə gözləmək, bunu arzulamaq nə qədər absurd səslənsə də, amma bu belə idi. Çünki bu savaş, əslində, bizim üçün haqq-ədaləti bərpa etmək, minlərlə şəhidimizin ruhunu əsarətdən qurtarmaq qədər müqəddəs vəzifə idi. Böyük güclərin faktiki olaraq haqsızın və yalanın yanında olduğu müasir dünyada, elə bundan gözəl arzu da ola bilməzdi. Və bu arzu 2020-ci il sentyabrın 27-də reallaşdı. Məhz Vətən müharibəsinin başlandığı həmin gün düşmən döyüş postlarımızla yanaşı, öz xislətinə uyğun olaraq dinc yaşayış məntəqələrimizi də ağır artilleriya atəşinə tutmuşdu və elə ilk gündə hərbi qulluqçularımızla bərabər, ikisi uşaq olmaqla, 11 dinc sakin də həlak olmuşdu. Buna cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyev azğınlaşmış düşmənin hərbi təxribatının qarşısını almaq, illərdir, davam edən bu təcavüzkar siyasətə son qoymaq üçün bütün cəbhəboyu əks-hücum əmrini verdi. Bununla da, 44 gün sürən müharibə ərzində Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızı düşmən işğalından azad etdi.

Bu qısa müharibə dövründə erməni ordusu Azərbaycana qarşı ən qəddar hərbi cinayətlərə əl atdı. Döyüş zonasından onlarla kilometr uzaqda yerləşən Bərdə, Gəncə, Goranboy, Naftalan, Mingəçevir, Yevlax, Qəbələ və digər rayonların yaşayış məntəqələrini ballistik raketlərlə, fosforlu və kasetli bombalarla hədəfə aldı. Nəticədə, yüzə yaxın mülki şəxs, o cümlədən körpələr, uşaqlar, qadınlar, qocalar həlak oldu. 400-dən çox mülki şəxs yaralandı, 5 mindən çox ev dağıdıldı, zədələndi. Beləliklə, erməni faşistliyi bir daha özünün gerçək simasını dünyaya göstərdi. Azərbaycan Ordusu isə bunun tam əksi olaraq düşmənin cavabını döyüş meydanında verdi. “Yenilməz və hər zaman qalib” erməni ordusunun başına “Dəmir yumruq” endirməklə onlara heç zaman almadıqları zərbəni vurdu. 44 gün ərzində bir addım da olsun, geri çəkilməyən Silahlı Qüvvələrimiz Qarabağın incisi sayılan Şuşanı azad etməklə düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdi. Və bu qələbə xəbərini Ali Baş Komandan xalqımıza Şəhidlər xiyabanından çatdırdı.



Vətən müharibəsində Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar dünya hərb tarixinə qızıl hərflərlə yazıldı. Dünyanın tanınmış hərbi araşdırma mərkəzləri, ekspertləri ordumuzun Qarabağ müharibəsində tətbiq etdiyi yenilikləri, hərbi taktiki gedişləri təhlil edərək bunu XXI əsrin döyüş vərdişləri kimi dəyərləndirdilər. Bununla yanaşı, müharibənin taleyini həll edən möhtəşəm Şuşa əməliyyatı, sözün həqiqi mənasında, erməni ordusunun və havadarlarının belini qırdı, Azərbaycan əsgərinin isə yenilməz gücünü bütün dünyaya göstərdi. Təsadüfi deyil ki, Azərbaycan Ordusunun müharibə bacarıqları bu gün də hərbi-siyasi mərkəzlərdə müzakirə olunur, öyrənilir.

Qələbənin qazanılmasında muxtar respublikamızdakı Əlahiddə Ümumqoşun Ordunun müvafiq hərbi birləşmələri də böyük rol oynamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu möhtəşəm qələbədən sonra Naxçıvana ilk səfərində Naxçıvan Ordusunun gücünü belə qiymətləndirdi: ***“İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər…”***

Beləliklə, 44 gün davam edən Vətən müharibəsinin nəticəsi olaraq Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ölkənin ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi. 2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar. Bu sənəd faktiki olaraq Ermənistanın kapitulyasiya aktı oldu. Amma təəssüflər olsun ki, birgə imzalanmış bu bəyannamədəki bəzi şərtlər Ermənistan tərəfindən bu günədək yerinə yetirilmədi. Azərbaycanın son 3 il ərzində Ermənistan silahlı qüvvələrinin Qarabağ bölgəsindən çıxarılmasının zəruriliyi ilə bağlı dəfələrlə həm Ermənistan tərəfinə, həm də beynəlxalq təşkilatlara etdiyi çoxsaylı müraciətlərə baxmayaraq, qarşı tərəf nəinki bu öhdəliyinə əməl etmədi, əksinə, ölkəmizə qarşı silahlı təxribatlarının intensivliyini bir qədər də artırdı. Xüsusilə bu il sentyabrın 19-da erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində ikisi mülki şəxs olmaqla, 6 Azərbaycan vətəndaşının həlak olması ordumuzun yenidən hərəkətə keçməsinə səbəb oldu. Məhz elə həmin gün cənab Ali Baş Komandanın əmri ilə Azərbaycan Ordusu lokal xarakterli antiterror tədbirlərinə başlayaraq qarşıda duran bütün vəzifələri cəmi bir gün ərzində yerinə yetirdi və düşmən layiqincə cəzalandırıldı. Ordumuz bir daha sübut etdi ki, şəhidlərimizin qanı heç vaxt yerdə qalmayacaq. Bu antiterror əməliyyatı zamanı Azərbaycan Ordusu düşmənin 90-dan çox döyüş mövqeyini ələ keçirdi. Cəmi 24 saata yaxın davam edən bu antiterror əməliyyatı suverenliyimizin bərpası ilə nəticələndi. Hazırda əməliyyat zonasında silah-sursatların təhvil verilməsi, bölgəyə humanitar yardımların çatdırılması, minaların təmizlənməsi və sair bu kimi işlər görülür. Ölkə başçısı dəfələrlə çıxışlarında qeyd etmişdi ki, Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdır və Azərbaycan dövləti onların hüquq və təhlükəsizliyini təmin edəcəkdir. Lokal antiterror əməliyyatlarının aparılmasında da əsas məqsəd oradakı yerli erməni əhalisinin separatçıların girovluğundan xilas olunması, beynəlxalq hüquq tərəfindən tanınmış bütün ərazilərimizdə suverenliyimizi bərpa etmək idi. Bu əməliyyata qədər Azərbaycan bir çox istiqamətlərdə uğurlu mübarizə aparmış və lazımi nəticələrə nail olmuşdur. Əvvəlcə ekoloji aksiya, sonra Laçında sərhəd-buraxılış məntəqəsinin qoyulması, ermənipərəst qüvvələrin “humanitar” şousunun qarşısının alınması və sair antiterror əməliyyatının başlamasınadək həyata keçirilən mühüm işlər idi. Ordumuzun lokaltipli antiterror əməliyyatını çox qısa müddətdə peşəkar səviyyədə həyata keçirməsi də xüsusi vurğulanmalıdır. 24 saat ərzində tamamlanan bu əməliyyat zamanı orada olan mülki obyekt və əhali heç bir ziyan görmədi. Əlavə olaraq Azərbaycan tərəfi Qarabağda yaşamaq istəməyənlər üçün humanitar dəhliz də tətbiq etdiyini və əhalini bu öz qüvvəsindədir. Təkcə onu demək kifayətdir ki, əməliyyat başlayan gün Fransanın təkidi ilə BMT Təhlükəsizlik Şurasında bu məsələ müzakirəyə çıxarılsa da, heç bir nəticəsi olmadı (Təxminən, bir ay bundan əvvəl Fransa Laçın yolu ilə bağlı da BMT-yə müraciət etmişdi). Müzakirədən bir gün əvvəl Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın BMT-dəki çıxışında Azərbaycanın haqq işini bir daha dilə gətirməsi erməni lobbisini və bu lobbinin dəstəkçilərinin xəyallarını puç etdi. Yeri gəlmişkən, indiyədək Azərbaycana qarşı ən sərt mövqe tutan, erməni lobbisinin əsirinə çevrilmiş amerikalı senator Bob Menendez haqqındakı külli miqdarda rüşvət qalmaqalına görə Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin rəhbəri vəzifəsini tərk etdi. Mediada yayılan məlumatlara görə, ermənidən daha çox erməni olan bu riyakar senatorun haqqında artıq cinayət işi də başlanılıb. Azərbaycana qarşı “səlib yürüşü”ndə Fransa ilə yanaşı, Almaniyanın da ədalətsiz davranışı bu proseslərdə öz xristian təəssübkeşliyini göstərdi. Xüsusilə Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borelin Azərbaycana qarşı əsassız bəyanatları bu kontekstdə daha aydın görünürdü. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan lokal antiterror tədbirləri ilə yarımçıq qalan işləri tamamladı. Ermənistan ordusunun bölgədəki qalıqları tərk-silah ediləndən sonra bölgədə reinteqrasiya prosesi başlayacaq. Yevlax prosesi, Xankəndiyə elektrik enerjisinin verilməsi və digər bu kimi addımlar artıq prosesin sürətlə irəliləməsindən xəbər verir.







Bütün bu proseslərin gedişində diqqətçəkən mühüm məqamlardan biri də Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Prezidenti cənab İlham Əliyevin sentyabrın 25-də Naxçıvanda görüşməsi idi. Səfər çərçivəsində hər iki dövlət başçısı muxtar respublikada müxtəlif növ döyüş və mühəndis texnikalarının, atıcı silahların, artilleriya qurğu və sistemlərinin, rabitə avadanlıqlarının təmiri və modernləşdirilməsini həyata keçirmək imkanına malik Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışında və İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimində iştirak etdilər. Həmin gün bütün dünya Türkiyə-Azərbaycan qardaşlığının növbəti nümunəsini həm də iki ölkəni birləşdirən Naxçıvanda gördülər. Görüşlərdə Naxçıvanın bu əlaqələrdə mühüm rolu vurğulanaraq Ermənistana növbəti dəfə sülh naminə bütün imkanlardan istifadə üçün tövsiyələr səsləndirildi.

Son bir neçə ildə ölkəmizdə baş verən hərbi, siyasi, iqtisadi proseslərin xronologiyasına nəzər salsaq, həqiqətən, mühüm tarixi mərhələdən keçdiyimizi görə bilərik. Prezident cənab İlham Əliyevin Naxçıvanda Türkiyə lideri ilə mətbuata bəyanatında dediyi kimi: ***“Biz Azərbaycanda, həqiqətən, tarixi anlar, günlər, illər yaşayırıq. İkinci Qarabağ müharibəsi, tarixi Zəfərimiz, beş gün bundan əvvəl uğurlu əməliyyat nəticəsində suverenliyimizin bərpası tarixi hadisələrdir və haqlı olaraq bununla qürur duyuruq”.***

**Səbuhi HƏSƏNOV**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*

## *“Tarix yazan qəhrəmanlar”* kitabının təqdimatı olub

27 sentyabr – Anım Günü münasibətilə Culfa Rayon İcra Hakimiyyəti, rayon Mədəniyyət Şöbəsi, İdman İdarəsinin birgə təşkilatçılığı ilə Mübariz Möhsünov və Alim Ağayevin həmmüəllifi olduğu “Tarix yazan qəhrəmanlar” kitabının təqdimatı olub. Əlincəqala Tarix-mədəniyyət kompleksində keçirilən tədbirdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.



Culfa Rayon İcra Hakimiyyəti başçısı Aparatının şöbə müdiri Ruslan Cəfərov çıxış edərək bildirib ki, şəhidlik bir zirvə olmaqla yanaşı, həm də bir məktəbdir. Elə bir məktəb ki, bizlər o məktəbdən igidliyi, mərdliyi, cəsurluğu, Vətən uğrunda candan keçməyin nə olduğunu öyrənirik. Həyatda ən böyük xoşbəxtlik də elə Vətən yolunda şəhid olmaqdır. Lakin bu əlçatmaz zirvəyə ucalmaq hər kəsə nəsib olmur.

Şəhid ailələrinin üzvləri və digər çıxış edənlər muxtar respublikada şəhid ailələri, qazi və müharibə iştirakçılarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlərdən danışıb, göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Sonda müəlliflər Mübariz Möhsünov və Alim Ağayev “Tarix yazan qəhrəmanlar” kitabında yer alan məqalə və fotolar haqqında söhbət açıb, yeni nəşri iştirakçılara təqdim ediblər.

**Aidə İBRAHİMOVA**

# Bölgəyə sülhün, barışın gəlməsi çox yaxındır



*2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən II Qarabağ müharibəsi ordumuzun Böyük Zəfəri ilə nəticələndi və həmin il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla qarşı tərəf məğlubiyyətini etiraf edərək üzərinə bir sıra öhdəliklər götürdü. Ermənistan tərəfi ötən müddətdə bəyanatın müddəalarını pozaraq öhdəliklərinə əməl etmədi, regionda təhlükəsizliyi təmin edəcək sülh müqaviləsini imzalamaq yerinə müxtəlif təxribatlar törətdi. Son bir neçə ay ərzində Azərbaycanın Qarabağ bölgəsindəki qanunsuz erməni silahlı birləşmələri tərəfindən Azərbaycan Ordusunun mövqeləri müxtəlif çaplı silahlardan intensiv şəkildə atəşə tutulur, ərazilərimizin minalanması, Azərbaycanın Qarabağ bölgəsindəki qeyri-qanuni silahlı birləşmələrin mövcudluğu davam etdirilirdi və bu hal gərginliyi daha da artırırdı.*

Beləliklə, üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, separatçıların tərk-silah edilərək ərazilərimizdən çıxarılması, təhlükəsizliyin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı. Tədbirlər nəticəsində sentyabrın 20-də Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq saat 13⁰⁰-da bir sıra şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olundu. Beləliklə, Qarabağdakı qanunsuz silahlı birləşmələr ağ bayraq qaldıraraq təslim oldular. Ordumuz, təxminən, 24 saatlıq antiterror tədbirləri nəticəsində Qarabağda yenə Tarixi Zəfər çaldı və bütün ərazilərdə suverenlik tam bərpa edildi. Azərbaycan qarşıya qoyulan bütün hədəflərə nail oldu, bütün kommunikasiyalar, yollar, yüksəkliklər nəzarətə götürüldü, bütün Qarabağ ərazisində Azərbaycan qanunları və siyasi hakimiyyəti təmin olunacaq. Ölkə başçısının bütün dünyaya nümunə olan ***"Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm"*** fikri öz real təsdiqini bir daha tapdı.

Sentyabrın 20-də Prezident cənab İlham Əliyev xalqa müraciətində antiterror tədbirləri nəticəsində hərbçilərimizin böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərdiklərini qeyd edərək dedi: ***"Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır".***

Onu da qeyd edək ki, dövlətimiz tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsinin fəaliyyətinə tam şərait yaradılmışdır. Postmüharibə dövründə ölkəmizə münasibətdə qərəzli və ikili yanaşma sərgiləyən bu qurum görünür ki, lokal xarakterli antiterror tədbirlərindən sonra gerçəyi görməyə başlayıb. Belə ki, BQXK tərəfindən Laçın-Xankəndi və Ağdam-Xankəndi yolları ilə ərzaq və digər humanitar yardımın Xankəndiyə çatdırılması üçün bütün lazımi şəraitin yaradıldığı etiraf edilib və BQXK vasitəsilə ermənisilli yaralı hərbçilərə tibbi yardım göstərmək istiqamətdə müəyyən addımlar atılıb. Bir sözlə, ölkəmiz öz humanistliyini göstərərək mülki-hərbi əməkdaşlıq konsepsiyası çərçivəsində mülki şəxslərə BQXK ilə birgə yardım edir və dövlətimiz Qarabağda yaşayan ermənisilli əhaliyə ərzaq yükü də göndərib.



44 günlük müharibədən sonra xalqımızın əldə etdiyi böyük Zəfəri, eləcə də son hadisələr zamanı ordumuzun qazandığı uğurları həzm edə bilməyən, BMT kürsülərində qərəzli, qeyri-obyektiv çıxış edənlər, dezinformasiya xarakterli məlumatları müxtəlif platformalarda yayanlar oldu. Belə ki, BMT Təhlükəsizlik Şurası Azərbaycanın Qarabağ bölgəsində keçirdiyi antiterror tədbirlərini müzakirə etmək üçün sentyabrın 21-də iclas keçirərək regionu alov nöqtəsi kimi xarakterizə edib, bölgədə döyüşləri etibarlı və davamlı surətdə dayandırmağa çağırış etdi. Burada Fransa ilə birgə Almaniya da anti-Azərbaycan mövqeyini bir daha ortaya qoydu. Bütün bu manevrlər suveren ərazilərimizdə separatizmin məhvi nəticəsini dəyişdirə bilmədi. Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Təhlükəsizlik Şurasının iclasında fakt və fotoların dili ilə verdiyi peşəkar cavablar, Türkiyənin, hər zaman olduğu kimi, Azərbaycanın haqlı mövqeyini dəstəkləməsi bizə diplomatik üstünlük qazandırdı. Bir sutkadan az müddət ərzində həyata keçirilən lokal antiterror tədbirləri yalnız ədalətin və beynəlxalq hüququn yanında olan dövlətlər tərəfindən dəstəkləndi. Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə Ali nümayəndəsi Cozef Borelin söylədiyi əsassız fikirlər, qərəzli bəyanat puça çıxdı. Azərbaycan Xarici İşlər Nazirliyinin Cozef Borelin bəyanatına cavabında da bildirildi ki, bu təşkilat Azərbaycanın suveren ərazilərinin 30 ilə yaxın davam edən hərbi işğalını, azərbaycanlılara qarşı etnik təmizləmə və bəşəriyyətə qarşı cinayətləri pisləməkdən həmişə çəkinmiş və 2020-ci il müharibəsindən sonra Azərbaycanın regionda sülh və sabitliyin bərqərar edilməsi istiqamətində fəaliyyətini heç vaxt təqdir etməmişdir. Azərbaycana qarşı təhdidedici bəyanat səviyyəsinə qədər ikitərəfli yanaşma regionumuzda sülhə xələl gətirir... Bir vaxtlar azərbaycanlılar silah gücünə, zorla, vəhşi üsullarla doğma yurd-yuvalarından didərgin düşəndə, azərbaycanlılara qarşı kütləvi surətdə soyqırımı həyata keçiriləndə ermənipərəst qüvvələrin səsi eşidilmirdi. Bəli, bu gün bunu fotolar da təsdiq edir ki, bir tərəfdə zor gücünə Qarabağdan qovulan azərbaycanlılar, digər tərəfdə heç vaxt onların olmayan torpaqları rahatlıqla tərk edib öz vətənləri Ermənistana qayıdan ermənilər. Tarixi ədalət həmişə öz yerini tapır.

Sentyabrın 21 və 25-də Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri ilə keçirilən görüşlərdə sosial və humanitar məsələlər müzakirə edilmiş, erməni sakinlərin müraciəti əsasında uşaq bağçaları və məktəblər, xəstəxanalar və digər fövqəladə xidmətlər sahəsində sosial obyektlərin çalışması üçün yanacağın çatdırılması, eləcə də digər humanitar dəstək tədbirlərinin görülməsi məsələləri tezliklə aidiyyəti mərkəzi hökumət institutları tərəfindən icra olunacaq. Hazırda Laçın sərhəd-buraxılış məntəqəsindən Xankəndi-Gorus istiqamətində ermənisilli şəxslərin sərbəst keçidi təmin olunur və onlar öz şəxsi maşınları ilə Ermənistan istiqamətində sərbəst şəkildə keçid edirlər. Dövlətimiz tərəfindən növbəti humanitar addım Xankəndi şəhərinə elektrik enerjisinin verilməsi olub, belə ki, Xankəndinin Ermənistanın enerji sistemindən ayrılaraq Azərbaycan enerji sisteminə qoşulması təmin edilib.

İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra qarşıda duran əsas məsələlərdən birincisi, Cənubi Qafqazda sülh və təhlükəsizliyi təmin edəcək sülh sazişinin imzalanmasıdır. Dövlətimizin başçısı həmişə öz çıxışlarında vurğulayıb ki, bizim erməni xalqı ilə heç bir problemimiz, ədavətimiz yoxdur. Son hadisələrdən sonra sülh müqaviləsinin imzalanması real görünür. Sülh müqaviləsinin imzalanması, eyni zamanda Zəngəzur dəhlizinin reallaşması regiona geniş imkanlar qazandıracaq.

Sentyabrın 25-də Naxçıvanda səfərdə olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan buradan bir daha Ermənistana sülh çağırışı etdilər. Prezident cənab İlham Əliyev ***"Yəni bizim müştərək maraqlarımız ondan ibarətdir ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun, müharibələr olmasın, ölkələrin ərazi bütövlüyü təmin edilsin"***, Prezident Rəcəb Tayyib Ərdoğan isə *"Ermənistanın ona uzadılan sülh əlini tutmasını və artıq səmimi addımlar atmasını gözləyirik. Hər zaman vurğuladığım kimi, sülhün uduzanı olmaz"* deməklə bölgəmizdə sülh, sabitlik və rifahın yaranması üçün sülh müqaviləsinin imzalanmasının əhəmiyyətini vurğuladılar. Bütün bunlar əminlik yaradır ki, bölgəyə sülhün, barışın gəlməsi çox yaxındır.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Bir kəndin qəhrəmanlıq salnaməsi



*Şəhid adının daim uca tutulduğu Azərbaycanımızın hansı bölgəsinə üz tutsaq orada şəhid məzarlarını və qəhrəman Vətən oğullarına həsr olunmuş abidələri görərik. Ölkəmizin hər bir yaşayış məntəqəsində olduğu kimi, Şərur rayonunun Püsyan kəndində də müharibə iştirakçılarına, şəhidlərə xüsusi hörmətlə yanaşılır. Püsyan kəndinin vətənpərvər gəncləri həm Birinci Qarabağ müharibəsində və Sədərək döyüşlərində, həm də Vətən müharibəsində düşmənə sarsıdıcı zərbələr endirib, işğalçıları yerinə oturtmağı bacarıblar. Bir sözlə, Püsyan gəncləri silahdaşları ilə birlikdə erməni terrorçularını məhv etməklə əzəli torpaqlarımızın işğaldan azad olunmasında fəal iştirak ediblər.*

Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda şəhidlər vermiş Püsyan kəndinin onlarla qazisi, müharibə veteranı və hazırda müxtəlif qoşun növlərində xidmətlərini davam etdirən gəncləri var. Püsyan kəndində doğulub, boya-başa çatan Fərhad Mirzəyev 1992-ci ildə, Niyazi Qəhrəmanov 1995-ci ildə, Asəf Haqverdiyev 2000-ci ildə, artilleriyaçı zabit Məmməd Zamanlı isə 2020-ci ildə İkinci Qarabağ savaşında şəhidlik zirvəsinə ucalıb.

Gənclərimizin hərbi xidmətə marağı yüksək olduğundan Püsyan kəndinin gəncləri Azərbaycan Silahlı Qüvvələrində müxtəlif rütbə və vəzifələrdə xidmət edirlər: 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Günnüt əməliyyatında və İkinci Qarabağ müharibəsində, eləcə də sonrakı döyüş əməliyyatlarında iştirak edənlər olub. Vətən müharibəsi zamanı düşmənlə qızğın döyüşlərə qatılanlarla yanaşı, Naxçıvanda ayıqsayıq döyüş növbətçiliyi də aparıblar.

Ordu sıralarında peşəkarlaşan şücaətli zabitlərdən biri də Məmməd Zamanlı olub. Vətən müharibəsinin başlandığı ilk gündən komandiri olduğu bölmənin şəxsi heyəti ilə birlikdə döyüşlərə qatılan Məmməd Zamanlı, 2020-ci il sentyabrın 27-də Füzuli istiqamətində düşmənin atdığı mərminin partlaması nəticəsində şəhidlik zirvəsini fəth edib. Qeyd edək ki, şəhidimizin adını daşıdığı babası Məmməd kişi İkinci Dünya müharibəsində, atası Rəhman Zamanov isə Birinci Qarabağ savaşında iştirak edib. Şəhidin xatirəsi ölkəmizin bir neçə yerində, eləcə də doğulub, boya-başa çatdığı Püsyan kəndində əbədiləşdirilib.



Püsyan kənd tam orta məktəbinin hərbi rəhbəri, ehtiyatda olan baş leytenant ***Bağır Tağıyev*** kənddə uşaq, yeniyetmə və gənclərin hərbi peşəyə olan maraqlarından danışaraq qeyd etdi ki, "Məktəbin pedaqoji kollektivi şagirdlərə vətənpərvərlik tərbiyəsini ən yüksək səviyyədə aşılamağa çalışır. Şagirdlərimizin hər birinin babası, atası, qardaşı, əmisi, dayısı döyüş yolu keçmiş insanlardır. Ona görə də bizim nəzəri olaraq aşılamağa çalışdığımız vətənpərvərlik tərbiyəsini şagirdlərimiz evlərində öz yaxınlarından praktiki mənimsəyirlər".

Əfqanıstan müharibəsi veteranı olan Bağır Tağıyev həm də Sədərək döyüşlərinin iştirakçısıdır. Hərbi rəhbərlərin təlim toplanışında bilik və bacarığını daha da təkmilləşdirən Bağır Tağıyev hər il Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə Püsyan kəndindən şagirdlərin qəbul olunduğunu, hazırda müxtəlif xüsusi təyinatlı təhsil müəssisələrində, eləcə də müddətdən artıq həqiqi hərbi xidmət olunduğunu, hazırda kəndin gənclərinin hərbi təhsil aldığını vurğuladı. Hərbi rəhbərin oğlu Ziya Tağıyev də gizir rütbəsi ilə Azərbaycan Ordusunda xidmət edir.



Bağır Tağıyev kəndin şəhidlərindən danışarkən bildirdi ki, "Fərhad Mirzəyev 18 may 1992-ci ildə Ermənistan silahlı qüvvələrinin ağır hücum əməliyyatları nəticəsində Sədərəkdə şəhid olub. Fərhad və döyüşçü yoldaşları düşmənin təslim olmaq çağırışına məhəl qoymadan son damla qanlarınadək vuruşublar. Niyazi Qəhrəmanov 1995-ci ildə, Asəf Haqverdiyev isə 2000-ci ildə xidməti döyüş tapşırıqlarını canları bahasına yerinə yetirərkən şəhid olublar. Vətən müharibəsində leytenant Məmməd Zamanlı erməni terrorçularının keçilməz dediyi "Ohanyan səddi"nin dağıdılmasında fəallıq göstərib. Məmməd Zamanlı Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında düşmənin canlı qüvvəsinin məhv edilməsində şəxsi igidlik, şücaət, rəşadət nümayiş etdirdiyinə, vəzifə borcunu ləyaqət və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev tərəfindən "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib. Dərslər zamanı biz müəllimlər Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda döyüşmüş qəhrəmanlarımız haqqında ətraflı məlumat veririk, şagirdlərlə qazilərin, müharibə veteranlarının və şəhid ailələrinin görüşünü keçiririk".

*Elə bunun nəticəsidir ki, Püsyan kəndində uşaq, yeniyetmə və gənclər vətənpərvər ruhda yetişir, şəhidlərin döyüş yolunu öyrənir, təhsil aldıqları Püsyan kənd tam orta məktəbində, müxtəlif orta ixtisas və ali təhsil ocaqlarında, xüsusi təyinatlı təhsil müəssisələrində gələcəyin peşəkar vətən müdafiəçiləri kimi yetişirlər.*

**Nəriman NƏCƏFOV**

*Bəşəriyyət tarixində hər bir xalq özünəməxsus şəkildə ölkəsinin sosial-iqtisadi və siyasi inkişaf şəraitindən asılı olaraq yetişməkdə olan gənc nəslin hərbi biliklərə yiyələnməsinə xüsusi əhəmiyyət vermişdir. Gənc nəslin hərbi-fiziki tərbiyəsinin məzmun və formasının səciyyəvi xüsusiyyətləri var. Hər şeydən əvvəl bu cür tərbiyə üsulunun tarixi çox qədim olmaqla yanaşı, həm də xarici işğalçılara qarşı aparılan hərbi mübarizələrdə təşəkkül tapmışdır.*

## Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi hər zaman aktualdır

Hərbi-vətənpərvərlik tərbiyəsi Vətənə məhəbbət, öz xalqına hörmət, Vətənin düşmənlərinə nifrət, doğma yurdun çiçəklənməsi uğrunda fəal mübarizə bütün ictimai formasiyalarda dövrün zəka sahiblərinin həmişə diqqət mərkəzində olmuşdur. Hərbi-vətənpərvərlik tərbiyəsi hər bir ölkə vətəndaşının vətəninin müdafiəsinə şəxsi hazırlığı ilə müəyyən edilir. Bunun üçün həmişə hərbi işə, düşmənə qarşı silahlı mübarizəyə yiyələnmək əsas vəzifə hesab olunur.

Hərbi-vətənpərvərlik hissi min illər möhkəmləndirilmiş ülvi hissdir. Bu ülvi hiss insanın öz doğma Vətəninə hədsiz məhəbbət bəsləməsində, onun müvəffəqiyyətlərini gördükdə ürəkdən sevinməsində, düşmənlərinə dərin nifrət bəsləməsində, hər qarış torpağın göz bəbəyi kimi qorunmasında, döyüş bacarığına və vərdişlərinə yiyələnməsində ifadə olunur. Hərbi-vətənpərvərlik hissi doğma yerlərə və adamlara bağlılıqdan, onları xarici və daxili düşmənlərdən qorumaqdan başlayaraq, bütün qüvvə və qabiliyyətini Vətənin, xalqın mənafeyi uğrunda mübarizəyə həsr etməyə qədər inkişaf edib yüksəlir. Ümummilli Liderimiz Heydər Əliyevin söylədiyi kimi ***"...bizim, sizin, hamımızın vəzifəsi müstəqil Azərbaycanın sağlam gəncliyini tərbiyə etmək, bilikli etmək, müasir dünyanın əldə etdiyi nailiyyətlər səviyyəsinə qaldırmaq, Azərbaycanda müstəqil, demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu işinə cəlb etməkdir…"***

Yaşadığımız dövr gənc nəsli kiçik yaşlarından hərbi ruhda böyütməyi tələb edir. Gənc nəsli psixoloji və mənəvi baxımdan hərbi həyata hazırlamaq vacibdir, Vətəni qorumaq üçün həmişə hərbə hazır olmaq lazımdır. Gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsi ilə bərabər, onların fiziki hazırlığının səmərəliliyi, nəzarətdə olmağı tələb edir. İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Lakin vətənpərvərlik təkcə Vətəni sevmək deyil. Vətənpərvərlik həm də Vətən naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Bu hiss insanda anadangəlmə olsa da, bütün digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir və inkişaf edir. Digər tərəfdən, yeniyetmə və gənclərin bir vətəndaş kimi böyüməsində ailənin, cəmiyyətin, ümumilikdə, mühitin rolu böyükdür. Hərbi-vətənpərvərlik tərbiyəsini, sadəcə, quru sözlərlə, nəsihətlərlə məhdudlaşdırmaq olmaz. Çünki Vətən sevgisi gənc vətəndaşlarımızın məqsədyönlü davranış və fəaliyyətinin motiv və ideyasıdır. Bu baxımdan orta məktəblərdə tədris olunan gənclərin çağırışaqədərki hazırlığı fənninin böyük əhəmiyyəti vardır. Bu fənnin tədrisinin əsas məqsədi, birinci növbədə, gəncləri ölkənin müdafiəsinə psixoloji cəhətdən hazırlamaqdır. Bu isə gənclərə vətənpərvərlik hisslərinin aşılanmasında mühüm rol oynayır. Orduya çağırılan gənclərin ali məktəbdə oxuduğu dövrdə müəyyən hərbi biliklərə yiyələnməsi onların peşəkar hərbçi kimi yetişməsində də vacib rol oynayır.



Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, elinə və obasına hörmət, soy kökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıb və ona həyati əhəmiyyətli məsələ kimi baxıb. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, onda apardığı mübarizəyə inam hissini gücləndirir. Danılmaz bir faktdır ki, insanda vətənpərvərlik hissi qəhrəmanlığın əsasını qoyan amildir. Azərbaycan xalqı da qəhrəman xalqdır, bu xalq öz Vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetişdirib. Bu baxımdan gənclərin çağırışaqədərki hazırlıq dərslərinin ehtiyatda olan zabitlər tərəfindən keçirilməsi əhəmiyyətli rol oynayır. Belə mütəxəssislər tələbələrə hərbi-vətənpərvərlik hisslərini daha keyfiyyətli şəkildə aşılaya bilirlər. Tələbələrin hərbi-vətənpərvərlik hisslərinin artırılmasında hərbçilərlə canlı ünsiyyət də mühüm rol oynayır. Hərbi dərslər zamanı tələbələrin hərbi hissələrə aparılması onların Vətənə bağlılığının artırılmasında və Vətənin, torpağın müdafiəsində durmaq kimi hisslərinin inkişaf etdirilməsində böyük əhəmiyyətə malikdir. Bu baxımdan Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən təhsil müəssisələrinin qarşısında gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində məsul və təxirəsalınmaz vəzifələr qoyulması təsadüfi deyil. Bu vəzifələrin yerinə yetirilməsi son dövrlərdə tələbələrin hərbi vətənpərvərlik tərbiyəsinə öz böyük təsirini göstərib.

Hərbi-vətənpərvərlik tərbiyəsinin faktlar və zəngin əyani vasitələr əsasında aşılanması tərbiyə işinin bu mühüm sahəsi üzrə maraqlı forma və üsulları da meydana çıxarıb, məktəblərlə hərbi hissələr arasında əlaqələrin yaradılması daha da gücləndirilib. Bu sahədə məktəblərdə toplanılmış qabaqcıl təcrübə hərbi-vətənpərvərlik tərbiyəsini daha məzmunlu və məqsədəuyğun şəkildə aparılmasına imkan verib. Bu gün gənclərin çağırışaqədərki hazırlığı dərslərinə cəlb edilən hər bir tələbə yaxşı bilir ki, ordumuz varlığımız deməkdir, bu sarsılmaz qüvvə, sözün əsl mənasında, xalqın gücüdür, gənclərin yüzlərlə igid və mərd nümayəndələrini öz sıralarında birləşdirən "Dəmir yumruq"dur. Ona görə də xalqımız öz ordusu ilə fəxr edir, onu yüksək məhəbbət hissi ilə sevir. 2020-ci il sentyabr ayının 27-də başlanan 44 günlük Vətən müharibəsində qazandığımız Böyük Qələbədə, 2023-cü ilin sentyabr ayında erməni separatçılarına qarşı Qarabağda həyata keçirilən lokal antiterror əməliyyatlarında qazanılan uğurların başlıca səbəblərindən biri də məhz ordumuzun sıralarında belə qəhrəman və vətənpərvər övladların olması idi. Bu gün qürur hissi duyuruq ki, torpaqlarımızın işğaldan azad edilməsində, suverenliyimizin tam bərpa olunmasında naxçıvanlı gənclərin də rolu az deyil. Onların yüzdən çoxu şəhidlik zirvəsinə ucaldı, bir qismi isə qazi ömrü yaşayır. Belə igidlərimizin keçdiyi şərəfli ömür və döyüş yolları bugünkü gənclərimiz üçün örnək, onlarda vətənpərvərlik hisslərinin gücləndirilməsində bir nümunədir.





**Nazim HƏSƏNOV**
***Naxçıvan Dövlət Universitetinin Baş müəllimi, müharibə iştirakçısı, istefada olan mayor***

## Mayası qorxmazlıq, cəsurluq, mübarizliklə yoğrulan xalqımıza qəhrəmanlıq, qələbə əzmi yaraşır

Tarixboyu dünyaya sərgilədiyi humanizmlə, ədalətlə özünə sədaqətli dostlar qazanan Azərbaycan xalqının müttəfiqləri olduğu qədər, düşmənlərinin, onunla mübarizə aparan bədxahlarının sayı da az olmamışdır. Hələ min illər bundan əvvəl sərvətləri çapılıb-talanan, ərazi bütövlüyü kobudcasına pozulan, insanları hər cür zülm və əzab-əziyyətlərə tab gətirən Vətənimiz, təbii ki, bu düşmənləri özü qazanmayıb. Daim hərb meydanında dünyaya ədalət dərsi göstərməsinə, süfrəsində dilindən, dinindən, irqindən asılı olmayaraq, hər bir kəsə yer verməsinə baxmayaraq, səmimiyyətindən sui-istifadə edənlər, sözünə, dostluğuna xilaf çıxanlar da olub. Çox təəssüflər ki, bu xainlik və cılızlığın böyük bir qismini Vətənimiz qonşularından görüb. Gözləri daim özgələrinin torpağında olan, insanlara qarşı bəşəriyyətin görmədiyi qırğınları törədib sözdə özünə etnik dayaq yaradan bədnam qonşulardan…

Ötən əsrin qanlı-qadalı dövrləri bir çoxlarının yaddaşında silinməz izlər buraxıb. Kimisi bu illəri real şəkildə yaşayıb, kimisi də tarixin səhifələrində qanla yazılmış sətirləri oxumaqla hiss edib həmin dəhşətləri. Necə deyərlər, ruhuyla, canıyla hiss edib. Sözsüz ki, o illərin üzərindən çox vaxt keçib, təkrardan həmin tarixə qayıtmağa lüzum yoxdur, amma bu gün əldə etdiyimiz uğurlara baxanda mütləq ötənləri, keçənləri yad etməyin nə eyibi var. Təki qalibiyyət pəncərəsindən boylanaq keçmişə…

Müstəqilliyimizin bərpasından sonra ölkəmizin hər bir sahəsində baş verən inkişaf və yenilənmə ordu quruculuğu siyasətindən də yan keçmədi, qısa müddət ərzində nizami, nümunəvi, hər bir döyüş sursatı ilə təmin olunmuş Azərbaycan Ordusu formalaşdı. ***"Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır!"*** – deyən dahi rəhbər Heydər Əliyev bu fikirləri ilə Vətənimizin müdafiəsinin, necə deyərlər, əmin əllərdə olduğunu da diqqətə çatdırmışdı. Hələ illər əvvəl deyilmiş bu qiymətli kəlam bu günümüz, sabahımız üçün də bir nümunədir.

Bu gün öz gücü ilə dünya hərb tarixində bir imza qoymuş müzəffər Ordumuz sayəsində xalq olaraq qüdrətimizi bir daha bəşəriyyətə göstərdik. Bütün dünyanın siyasi güclərinə Azərbaycan əsgərinin nələrə qadir olduğunu sübut etdik. Ordumuzun hazırkı səviyyəsi Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən ordu quruculuğu siyasətinin tamamilə doğru olduğunu, böyük amallara hesablandığını bir daha sübut edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasət isə indi ordumuzun yalnız bölgədə deyil, bütünlükdə dünyanın ən müasir orduları sırasında yer tutmasına imkan verir.

Xalqımız şübhə etmir ki, məqamı yetişən anda ordumuz 2016-cı ilin aprelində, 2018-ci ilin mayında, 2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsi zamanı əldə olunan uğurlarda olduğu kimi, bundan sonra da düşmənlə üz-üzə, mərd-mərdanə döyüşlərdə daim qalib ordu adını qazanacaqdır. 2023-cü ilin sentyabrında baş verən, 24 saatdan belə az davam edən, həmçinin dilimizdə "Gün var əsrə bərabər" həqiqətini bir daha şüara çevirən antiterror əməliyyatı Vətənimizin igid oğullarının, cəsur döyüşçülərinin qazandıqları zəfərin nişanəsi, Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunmasının bariz nümunəsidir. Qəlb yanğısı və qürur hissi ilə deyirik ki, bu qalibiyyət neçə-neçə Vətənini sevən, torpağına, yurduna candan-könüldən bağlı olan oğulların qanı, canı bahasına alınıb. Xalqımız qürurlu, məğrur, şəhidləri üçün hüznlü olduğu qədər, həm də fəxarətlidir. Çünki vuran qolu Şah İsmayıldan ruhlanan, Cahan şahdan ilhamlanan şanlı tariximiz bizlərə öyrətdi ki, əgər xalqın yaşadığı torpaq uğrunda şəhidi yoxdursa, həmin torpaq daim işğal təhlükəsi ilə, işğalçılarla üz-üzə, göz-gözə dayanacaq, düşmən qapıda hər zaman hazır gözləyəcək.

Doğulduğumuz ana torpağı, bu diyarın bizə bəxş etdiyi gözəllikləri qorumaq ən müqəddəs borcumuzdur. Bu günün kimliyindən asılı olmayaraq, azad, müstəqil ölkənin vətəndaşı olmaq hüququnu əldə etməyimiz, tarixboyu canını bu torpağa qurban verən cəsur Vətən oğullarının nəticəsindədir. Həmin qəhrəman oğullar ki Vətən sözü gələndə ölmək üçün deyil, yenidən doğulmaq, yenidən tarix yazmaq üçün məğrur dayandılar. Səngərlərdə üçrəngli bayrağı özünə dost, yastığı Vətən daşı bildilər. Mayası mətinlik, mübarizlik, qəhrəmanlıq olan xalqımıza da belə ordu yaraşar!!!

Azərbaycan Ordusunun Vətənə məhəbbət hissi hər bir əsgərinin, zabitinin canına-qanına hopmuş, yaşam amalı yanlız yurdunun, torpağının mənafeyinə çevrilmişdir. Əsl vətənpərvər ordu, xalq da məhz elə budur. Bu torpaq, bu yurd, əcdadlarımızın isti nəfəsinin hopduğu bu el-oba millətinin, yurdunun rifahını düşünən, daim hazırda dayanan, qəlbində Vətən, ağlında azad Azərbaycan şüarı ilə irəliləyənlərindir. Hər birimiz yaxşı bilir və dərk edirik ki, bugünkü müstəqillik xalqın azadlıq arzusu hesabına əldə olunub, bu bizim tarixi nailiyyətimizdir. Biz bir dəmir yumruq olmuşuq, qaranlıq gecəni deyil, aydın sabahları düşünərək bu yolda inamla addımlamışıq. Yurd sevgimiz də bizi tək buraxmayıb, daim ürəyimizdə alovlanıb, coşub. Ona görə də deyilir ki, "Vətənpərvərlik böyük bir məfhumdur". Biz bu vətənsevər ordumuzun nəticəsində qalib ölkə adını daşıyırıq. Qüdrətli ölkənin qalib ordusu qürurumuz, iftixarımızdır. Azərbaycan xalqı daim sizinlədir. Qələbə əzmin tükənməsin, Azərbaycan əsgəri!

**✍ Süreyya QƏDİMƏLİYEVA**



## Yabanı halda bitmiş 15000 ədəd narkotik tərkibli çətənə bitkisi kolu aşkar olunub

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Şərur Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri növbəti tədbirlər nəticəsində yabanı halda bitmiş 15000 ədəd narkotik tərkibli çətənə bitkisi kolu aşkar olunaraq məhv edilib.

Faktla bağlı araşdırma aparılır.

Bu istiqamətdə qətiyyətli mübarizə tədbirləri davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin mətbuat xidməti***


### *İtmişdir*

Şərur rayonunun Düdəngə kənd sakini Həsənov Elbəyi Həsən oğluna məxsus 102013004678 reyestr nömrəli həyətyanı torpaq sahəsinin plan ölçüsü və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Kükü kəndində Hüseynov Feyruz Həsən oğlunun adına verilmiş JN-293A və JN-293B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Kükü kəndində Hüseynova Qəmsiyyə Dostəhməd qızının adına verilmiş JN-243A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Şahbuzkənddə İbrahimov Bəxtiyar Əli oğlunun adına verilmiş JN-055A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək kənd sakini Axundova Könül İsa qızının adına olan JN-1525A inventar nömrəli, 10101008 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Yuxarı Daşarx kənd sakini Ağalarov Elxan Rəsul oğlunun adına olan JN-91A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

www.serqqapisi.gov.az

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 576